Azadlıq Radiosu

DÜNYA

# Konqres Trampın İran kampaniyasını qətnamə ilə məhdudlaşdırdı

16 dəqiqə öncə




ABŞ prezidenti Donald Tramp Oval Kabinetdə mətbuata açıqlama verir

ABŞ Konqresinin Nümayəndələr Palatası prezident Donald Trampın İrana qarşı hərbi kampaniyasını məhdudlaşdırmaq məqsədilə müharibə səlahiyyətlərinə dair qətnamə qəbul edib. Bu addım hər iki partiyanın administrasiyaya etirazı kimi qiymətləndirilir. Bu arada dövlət katibi Marko Rubio ABŞ-nin Tehrana qarşı əməliyyatlarının başa çatdığını bildirib.

Nümayəndələr Palatası iyunun 3-də keçirilən səsvermədə qətnaməni 215-208 səs nisbəti ilə qəbul edib. Dörd respublikaçı konqresmen də demokratlarla birlikdə sənədin lehinə səs verib.

Nyu-Yorkdan olan konqresmen **Qreqori Miks**in təqdim etdiyi qətnamədə Prezident Trampdan ABŞ Silahlı Qüvvələrini İrana qarşı hərbi əməliyyatlardan geri çəkmək tələb olunur. Sənədə əsasən, bu növ əməliyyatlar yalnız Konqres rəsmi şəkildə müharibə elan etdikdə və ya hərbi gücdən istifadəyə icazə verdikdə aparıla bilər.

Qətnamə baxılması üçün Senata göndərilib. Hazırda Senatda da müharibə səlahiyyətləri ilə bağlı ayrıca qətnamə layihəsi müzakirə edilir. Hər iki palata sənədi qəbul etsə belə, Trampın öz səlahiyyətlərinin məhdudlaşdırılması cəhdlərinə veto qoyacağı gözlənilir. Nümayəndələr Palatasının qəbul etdiyi cari sənəd birbaşa hüquqi qüvvəyə malik deyil və simvolik addım sayılır.




Qreqori Miks

## Konqresdə narazılıq artır

Bu səsvermə üç aydan çoxdur davam edən münaqişəyə qarşı Konqresin indiyədək göstərdiyi ən sərt reaksiya hesab olunur.

Miks səsvermədən sonra verdiyi bəyanatda hərbi kampaniyanın qarşıya qoyulan məqsədlərə nail olmadığını və İranın nüvə proqramı ilə bağlı diplomatik həll səylərinə zərbə vurduğunu qeyd edib: **"Əksinə, bu kampaniya İranın nüvə proqramının diplomatik yolla nizamlanması perspektivini daha da uzaqlaşdırıb".**

Nyu-Yorkdan olan demokrat siyasətçi artan yanacaq qiymətlərini və münaqişənin maliyyə yükünü də vurğulayıb. O, amerikalıların həm bahalaşan benzinin, həm də

cəmiyyətin böyük hissəsi tərəfindən dəstəklənməyən müharibənin xərclərini ödəmək məcburiyyətində qaldığını deyib.

Palatadakı respublikaçı rəhbərlər isə bu hərbi kampaniyanın Konqresin icazəsini tələb edən genişmiqyaslı müharibə olmadığını irəli sürürlər. Onların fikrincə, prezidentin səlahiyyətlərinin məhdudlaşdırılması Tehran rejiminə üstünlük verə bilər.

Buna baxmayaraq, respublikaçılar arasında da narazılıq artmaqdadır. Tomas Massi (Kentukki), Brayan Fitspatrik (Pensilvaniya), Tom Barrett (Miçiqan) və Uorren Devidson (Ohayo) öz partiyadaşlarının əksəriyyətindən fərqli olaraq qətnamənin lehinə səs veriblər.

## Rubio administrasiyanın siyasətini müdafiə edir

Səsvermədən bir neçə saat əvvəl **M.Rubio** Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsindəki çıxışında administrasiyanın siyasətini müdafiə edib.

Rubio ABŞ-nin hərbi kampaniyasına toxunaraq deyib: **""Epik Qəzəb" əməliyyatı başa çatdığı üçün artıq İranın hərbi potensialını zəiflətmək məqsədilə ölkə daxilinə davamlı zərbələr endirmirik".**

O, Vaşinqtonun qarşıya qoyduğu əsas hədəflərə çatdığını əlavə edib və həmçinin vurğulayıb ki, administrasiyanın məqsədi heç vaxt Tehranda rejim dəyişikliyi olmayıb. **"İranda dəyişiklik görmək və ölkənin xalq tərəfindən idarə olunmasını istərdik, amma bu, bizim hərbi missiyamızın məqsədi deyildi"**, – o, konqresmenlərə bildirib.

Rubionun sözlərinə görə, Vaşinqtonun məqsədi İranın regionu raket və dron hücumları ilə təhdid etmək gücünü sarsıtmaq olub. O, bu hərbi potensialın beynəlxalq birliyin İranın nüvə ambisiyalarına təsir göstərmək rıçaqlarını zəiflətdiyini vurğulayıb.


## Buna da bax:

Tramp Müctəba Xamenei ilə bağlı: 'Onunla nə vaxtsa görüşəcəyik'

'Hörmüz nüvə proqramından daha təsirli təzyiq vasitəsinə çevrilib' – Müsahibə

Təhlilçi: 'ABŞ Yaxın Şərqdə yeni regional nizamın formalaşdığını qəbul etməlidir'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur